www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-10 (1771) 31 may 2023-cü il



# Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı təbrik edib

**Onun liderliyi ilə növbəti illərdə də Türkiyənin hərtərəfli inkişafı davam etdiriləcək**

səh. 2

## Şəhid və qazi övladları üçün tibbi aksiya keçiriləcək

səh. 5

## ÜST-ün Azərbaycan nümayəndəliyi ilə memorandum imzalanıb

səh. 3

## ATU-nun “Brend tələbə”ləri mükafatlandırılıb

səh. 7




## Bariatrik cərrahiyyə və metabolik xəstəliklər konqresi keçirilib

“Səssiz epidemiya” ilə mübarizə sahəsində məşhur cərrah və həkimlərlə təcrübə mübadiləsi aparılıb

səh. 2

## ATU öz məzunlarının işlə təmin olunmasını diqqətdə saxlayır

*“Sözdən əmələ. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə” adı altında geniş tərkibli görüş keçirilib*

səh. 3

## Hərbi tibb fakültəsinin 23-cü ildönümü qeyd olunub

*Ötən dövr ərzində fakültədə 900-dən çox hərbi həkim, 650-dən çox hərbi feldşer hazırlanıb*

səh. 4



## ATU-da “Göz həkimi” tamaşası səhnələşdirilib

Rektor Gəray Gəraybəyli: Tələbələrimizin müxtəlif sahələr üzrə istedadlarının üzə çıxarılması təqdirəlayiqdir

səh. 4

# Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı təbrik edib



## Onun liderliyi ilə növbəti illərdə də Türkiyənin hərtərəfli inkişafı davam etdiriləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı prezident seçkilərində əldə etdiyi qələbə münasibətilə təbrik edib. Prezident İlham Əliyev bu qələbəni Türkiyə xalqının Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi siyasətə göstərdiyi etimad kimi dəyərləndirərək, əmin olduğunu bildirib ki, onun liderliyi ilə növbəti illərdə də Türkiyənin hərtərəfli inkişafı davam etdiriləcək.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana Türkiyə xalqının firavanlığı və ölkənin tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Türkiyə Prezidenti təbrikə və xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib, eyni zamanda, Müstəqillik Günü münasibətilə təbriklərini çatdırıb.

Azərbaycan Prezidenti təbrikə görə təşəkkürünü bildirib.

Azərbaycan Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı ölkəmizə rəsmi səfərə dəvət edib.

Dəvət minnətdarlıqla qəbul edilib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə bir daha əminliklərini bildiriblər.

Telefon söhbəti zamanı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edilib.

## “Ümummilli Lider Heydər Əliyev və Azərbaycan səhiyyəsi”

**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) Ümummilli Lider, görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan fotosərgi və bu materiallar əsasında hazırlanan albom-kataloqun təqdimat mərasimi olub. Mərasimdə İSİM-in direktoru Qəhrəman Haqverdiyev, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli və digər qonaqlar iştirak edib.**



Ulu Öndərin səhiyyə və tibb müəssisələrində, eləcə də səhiyyə işçiləri ilə görüşlərini əks etdirən fotosərgidə İSİM-in Səhiyyə kommunikasiyası şöbəsinin müdiri Laura Quliyeva, Səhiyyə Nazirliyinin QİÇS-lə Mübarizə Mərkəzinin direktor müavini Səbinə Babazadə və digər çıxışçılar ürək sözlərini bölüşərək, Ümummilli Lider Heydər Əliyevin xatirəsini hörmət və ehtiramla yad ediblər.

## Türkmənistan səfiri ilə görüş keçirilib



**Azərbaycan Tibb Universitetində Türkmənistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmət Elyasovla görüş keçirilib. Tanışlıq xarakteri daşıyan görüşdə tibb təhsili sahəsində iki ölkə arasında əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf imkanları müzakirə edilib.**

Səfir Q.Elyasov ixtisasca infeksionist olduğunu və tibb təhsili sahəsində qarşılıqlı fəaliyyətin inkişafının zəruriliyini bildirib. O cümlədən ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik məlumatların mübadiləsi üçün yeni imkanlar yaradılmasının əhəmiyyətini vurğulayıb.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli ölkəmizlə Türkmənistan arasında inkişaf edən ikitərəfli əlaqələr sırasında səhiyyə və tibb sahəsinin də olduğunu vurğulayaraq, hazırda Azərbaycan Tibb Universitetində Türkmənistanın 6 vətəndaşının ali tibb təhsili aldığını bildirib. Hər iki ölkənin ali tibb təhsili verən müəssisələri arasında əməkdaşlığın uğurla inkişaf edəcəyinə inandığını deyən rektor G.Gəraybəyli Azərbaycan Tibb Universitetində aparılan islahatlar, əcnəbi tələbələr üçün yaradılan şərait, universitetin beynəlxalq əlaqələrinin inkişafı haqqında da qonağa məlumat verib.

Görüşdə tibb təhsili sahəsində qarşılıqlı fəaliyyət, əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində müzakirələr aparılıb. Qeyd edək ki, görüşdə konsul Sultan Açılov və ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Orxan İsayev iştirak edirdilər.

## Rektor ATUREK-11 konfransında fərqlənən rezidentləri təltif edib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ATUREK-11 - rezidentlərin elmi-təcrübi konfransında uğurlu çıxışları ilə fərqlənən rezident və magistrlərlə görüşüb.**



Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfransda rezidentlər təbabətin aktual problemlərinə dair məruzələr və posterlərlə çıxış ediblər. Nəticələrə əsasən, iştirakçılar arasında ən uğuru layihələr təqdim edən 25 nəfər müəyyənləşdirilib.

Rezidentlərlə görüş zamanı ATU-nun rektoru ölkəmizdə rezidentura təhsil pilləsinin yaradılmasının tibb təhsilinə verdiyi töhfələrdən danışıb: “Rezidentura təhsil pilləsinin yaradılması prosesi heç də asan olmadı. Xeyli fərqli fikirlərin səslənməsinə baxmayaraq, biz artıq 2 pilləli təhsilin üstünlüklərini müşahidə etməkdəyik. Hazırda rezidentura təhsilində də yeniliklərin tətbiqi, müasir proqramların hazırlanması, təhsil səviyyəsinin daha da yüksəldilməsi istiqamətində işlər aparırıq”.

Professor G.Gəraybəyli gənc kadrların elmi tədqiqatlar aparması istiqamətində işlərin daha da gücləndirilməsinin vacibliyini qeyd edib. ATU-nun Rezidentura və magistratura şöbəsini müdiri, professor Məlahət Sultanova konfransın təşkilində, məruzələrin hazırlanmasında və digər məsələlərin uğurla reallaşmasında həm universitet rəhbərliyi, həm də rezidentlərin böyük zəhməti olduğunu vurğulayıb. M.Sultanova bu il ATUREK konfransında izlənilən yeniliklər, məruzələr barədə də məlumat verib. Həmçinin ATU-da magistratura təhsil pilləsində gözlənilən dəyişikliklər haqqında danışıb.

Sonra rektor Gəray Gəraybəyli sözügedən konfransda fərqlənən 25 rezident və magistrə xüsusi diplom və hədiyyələr təqdim edib.

**6-cı Beynəlxalq, 2-ci Xəzəryanı dövlətlərin, 4-cü türkdilli xalqların bariatrik cərrahiyyə və metabolik xəstəliklər konqresinin xarici ölkələrdən olan qonaqları Azərbaycan Tibb Universitetinin rəhbərliyi ilə görüşüb.**

## Beynəlxalq konqresin qonaqları ATU-nun rektoru ilə görüşüb



ATU-nun rektoru, professor Gəray Gəraybəyli “Heydər Əliyev İli” çərçivəsində keçirilən tədbirin bariatrik cərrahiyyə sahəsində yeniliklərin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıdığını bildirib. 500-dən artıq iştirakçısı olan konqresin Bakıda keçirilməsinin isə Azərbaycanın səhiyyə sahəsindəki uğurlarının beynəlxalq aləmdə tanınmasının göstəricisi olduğunu qeyd edib.

Konqresin təşkilat komitəsinin sədri, ATU-nun III Cərrahi xəstəliklər kafedrasının assistenti Taryel Ömərov tədbir haqqında geniş məlumat verib. O, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir çərçivəsində, həmçinin Oksford Universitetinin 52-ci "International Bariatric Club" simpoziumunun baş tutacağını bildirib.

Daha sonra Dünya Bariatrik Cərrahlar və Metabolik Xəstəliklər Dərnəyinin prezidenti (İFSO), Harvard Universitetinin Bariatrik cərrahiyyəsi departamentinin müdiri, professor Scott Shikora, İstanbul Universiteti Cərrahpaşa İnstitutunun professoru, Türkiyə Bariatrik Cərrahlar Dərnəyinin sədri Mustafa Taşkın, Avropa Piylənmənin Öyrənilməsi ilə Mübarizə Dərnəyinin Prezidenti (EASO), professor Volkan Yumuk, Qazaxıstan Bariatrik Cərrahiyyə Dərnəyinin prezidenti, Astana Tibb Universitetinin cərrahı, professor Ospanov Oral, Özbəkistan Bariatrik Cərrahi Dərnəyinin prezidenti, Daşkənd Medikal Akademiyasının Cərrahiyyə kafedrasının müdiri, professor Oktyabr Tesayev, Beynəlxalq Bariatrik Cərrrahlar Dərnəyinin həmsədri, London Oksford Universitetinin professoru Cheatan Parmar tədbir haqqında öz fikirlərini bölüşüblər.

Qeyd edək ki, sözügedən konqres AR Səhiyyə Nazirliyi tərəfindən 17 DTT balı alıb, İFSO (International Federation for the Surgery of Obesity and Metabolic Disorders) və Oksford Universitetinin nəzdindəki IBC (International Bariatric Club) tərəfindən təsdiqlənib.

# Bariatrik cərrahiyyə və metabolik xəstəliklər konqresi keçirilib

## “Səssiz epidemiya” ilə mübarizə sahəsində məşhur cərrah və həkimlərlə təcrübə mübadiləsi aparılıb

**Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş 6-cı Beynəlxalq, 2-ci Xəzəryanı dövlətlərin, 4-cü türkdilli xalqların bariatrik cərrahiyyə və metabolik xəstəliklər konqresi keçirilib.**



Səhiyyə Nazirliyinin dəstəyi ilə keçirilən konqresdə 11 xarici dövlət, 12 dərnək, 12 universitetdən gələn cərrah, alim və mütəxəssislər iştirak ediblər.

Dövlət Himni səsləndiriləndən sonra Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Xalqımızın Ümummilli Liderinin həyat və fəaliyyətinə həsr olunan videosüjet nümayiş olunub.

Konqresin açılış mərasimində Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Milli Məclisin Səhiyyə komitəsinin üzvü İlham Məmmədov, Səhiyyə Nazirliyinin şöbə müdiri Vüqar Məmmədov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi sədrinin müşaviri Nelli Veyisova, Azərbaycan Bariatrik Metabolik Cərrahlar Assosiasiyasının sədri Taryel Ömərov, Ümumdünya Bariatik Assosiasiyasının prezidenti Scott Shikora və başqaları çıxış edərək bu mühüm tədbirin əhəmiyyətindən bəhs ediblər.

Çıxışlarda qeyd olunub ki, piylənmə qeyri-infeksion epidemiya olaraq əsrimizin ən geniş yayılmış xəstəliklərindən biridir. Həmin patologiyanın aradan qaldırılmasında bir sıra tibbi metodlardan istifadə edilir. Ötən əsrin ortalarından tətbiq edilməyə başlayan bariatrik əməliyyatlar artıq çəki ilə mübarizədə ən yeni üsul sayılır. Artıq çəki hazırda dünyada ölümə səbəb olan xəstəliklər sırasında ön sıralarda dayanır. Həmin problemlə mübarizədə bariatrik əməliyyatlar artıq 70 ildən çoxdur ki, müsbət nəticələr verir. Ölkəmizdə bu sahədə 11 ildən çoxdur ki, uğurlu cərrahiyyə əməliyyatları aparılır. 2017-ci ildə bu sahədə milli protokol imzalanıb, 2018-ci ildən dərsliklər dərc olunmağa başlayıb. Bariatrik əməliyyatlar və metabolik xəstəliklərlə əlaqədar bir sıra konqreslər, maarifləndirici seminarlar keçirilib. Bu gün keçirilən konqres də bariatrik əməliyyatların öyrənilməsi, təkmilləşdirilməsi və daha qabaqcıl texnologiyalara yiyələnmək sahəsində irəliyə doğru daha bir addımdır.

Konqresin təşkilat komitəsinin rəhbəri olan T.Ömərov bildirib ki, tədbirdə qeyri-infeksion xəstəliklər sırasına daxil olan və “səssiz epidemiya” adlandırılan piylənmə ilə mübarizə sahəsində dünyanın müxtəlif ölkələrindən gələn məşhur cərrah və həkimlərlə təcrübə mübadiləsi aparılıb: “Onu da qeyd etməyə dəyər ki, konqresin yalnız piylənmənin cərrahi müalicəsi ilə deyil, eyni zamanda endokrinologiya, dietologiya, anesteziologiya, reanimasiya, qastroenterologiya və digər panellərlə öz işini davam etdirməsi bu sahədəki yenilikləri hərtərəfli öyrənməyə imkan verəcək”.

Qeyd edək ki, konqres çərçivəsində 7 akademik paneldə 29 beynəlxalq çıxış olmaqla, 65 elmi məruzə dinlənilib.

# ÜST-ün Azərbaycan nümayəndəliyi ilə memorandum imzalanıb

**Azərbaycan Tibb Universiteti ilə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyi arasında əməkdaşlığa dair memorandum imzalanıb. Sazişdə təcrübə mübadiləsinin genişləndirilməsi, tələbə və həkimlərin təlimlərə cəlb edilməsi, ümumilikdə milli səhiyyənin potensialının artırılması istiqamətində bir sıra layihələrin icrası nəzərdə tutulub.**



İmzalanma mərasimində çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli Ümumdünya Səhiyyə Təşkilatını qarşıdan gələn 75 illik yubileyi münasibətilə təbrik edərək ölkəmizin bu nüfuzlu təşkilatla əməkdaşlığa böyük önəm verdiyini bildirib. ÜST ilə birlikdə ölkəmizdə müxtəlif infeksion və qeyri-infeksion xəstəliklərlə, o cümlədən COVİD-19 pandemiyası ilə mübarizə çərçivəsində çoxsaylı layihələr icra edildiyini xatırladan rektor, tibb təhsilinin inkişafı sahəsində də ATU ilə ÜST arasında əməkdaşlığın genişlənməsinin tərəfdarı olduğunu söyləyib.

Təşkilatın ölkəmizdəki nümayəndəliyinin rəhbəri Hande Harmancı ÜST-ün Azərbaycanda həyata keçirdiyi layihələr haqqında məlumat verib. Onun sözlərinə görə, ATU tibb təhsili müəssisəsi kimi ÜST ilə qarşılıqlı əlaqədə çalışır. H.Harmancı memorandum imzalandıqdan sonra bu əməkdaşlığın daha da güclənəcəyinə, qurumların birgə maraqlı və faydalı layihələrə imza atacağına inandığını vurğulayıb.

Sonda hər iki qurumun rəhbərləri tərəfindən əməkdaşlıq memorandumu imzalanıb.

**"Gülüstan" sarayında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Bakı Ürək Günləri” 8-ci beynəlxalq konqresinin rəsmi açılış mərasimi keçirilib. Konqresə dünyanın 20-dən artıq ölkəsindən kardioloq və kardiocərrahlar qatılıb.**

# "Bakı Ürək Günləri" 8-ci beynəlxalq konqresi keçirilib



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ulu Öndərə həsr olunmuş videoçarx nümayiş etdirilib. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konqres iştirakçılarına müraciəti səsləndirilib.

Tədbirdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin sədri Vüqar Qurbanov, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və digər qonaqlar çıxış edib, ürək-damar xəstəliklərinin dünyada ölüm səbəblərinin başında gəldiyini diqqətə çatdırıb, ölkəmizdə kardiologiya sahəsində görülmüş işlərdən bəhs ediblər.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də mötəbər konqresdə iştirak edib.

# ATU öz məzunlarının işlə təmin olunmasını diqqətdə saxlayır

## “Sözdən əmələ. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə” adı altında geniş tərkibli görüş keçirilib

**Azərbaycan Tibb Universitetində “Sözdən əmələ. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə” adı altında görüş keçirilib. Konsultativ xarakterli görüşdə Azərbaycanda tibb sahəsində fəaliyyət göstərən əksər elmi-tədqiqat institutları və müəssisələr, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Təhsilin İnkişaf Fondu, özəl və dövlət xəstəxanaları, böyük klinikalar və bir sıra digər qurumların rəhbərləri iştirak ediblər. Görüşün məqsədi ATU məzunlarının məşğulluğunun təmin olunması ilə bağlı müzakirələr aparılmaq idi.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli qeyd edib ki, ali məktəblərin əsas missiyaları sırasında keyfiyyətli təhsil verilməsi ilə yanaşı, əmək bazarında uğurla fəaliyyət göstərən, insanların sağlamlığının keşiyində duran və ictimaiyyətə böyük elmi və praktiki töhfə verən məzunların hazırlanması da daxildir. ATU məzunlarının işlə təmin olunması üçün maraqlı tərəflərin nümayəndələri ilə müzakirələrin aparılması önəmlidir: “Görüş iştirakçılarının hər biri ATU-nun məzunlarıdır. Əsas məqsədimiz də cəmiyyət üçün keyfiyyətli məzun hazırlamaqdır. Son illər ATU-da istər tədris proqramlarının, istər tədris metodologiyasının müasirləşdirilməsi, istərsə də digər sferalarda xeyli işlər görülüb. İslahatlar nəticəsində universitetimizdə təhsil alan xarici tələbələrin sayı 3000-ə yaxınlaşmaqdadır. Türkiyə və Avropa ölkələrinin 30-a yaxın universiteti ilə qarşılıqlı əməkdaşlıq yaradılıb, birgə layihələr həyata keçirilir. ATU-da yeni ixtisasların yaradılması ilə yanaşı, tələbələrin biliyinin qiymətləndirilməsi prosesində dəyişikliklər aparılıb, prosesin tam şəffaf keçməsi üçün aralıq imtahanlar təşkil olunub. Universitetimiz 3 ixtisas üzrə beynəlxalq akkreditasiyadan təsdiq alıb. Bu istiqamətdə işlərimiz davam edir. Bununla yanaşı, sizlərlə, məzunlarımızı əsas işəgötürən tərəflərlə əməkdaşlığı etməyi düşünürük”.

Sonra ATU-nun İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva “Sözdən əmələ. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə” adlı təqdimatla çıxış edərək bir sıra statistik məlumatları açıqlayıb.

Görüşdə qeyd olunub ki, ATU tələbələrinin müvafiq bacarıq və məşğuliyyət imkanlarının yaxşılaşdırılması üçün tədris proqramının və fənlərin yenilənməsi, rəqabətədavamlılığın və innovasiyaların dəstəklənməsi və digər məsələlərlə bağlı müzakirələrin aparılmasına ehtiyac var.

Görüş iştirakçıları yerli, regional və milli səviyyələrdə kadr çatışmazlığı probleminin həll edilməsi üçün bacarıqların formalaşdırılması, eləcə də məşğulluq, təhsil və sosial təminat sahəsində inkişaf edən tələbat əsasında yeni ixtisaslarla bağlı təklif və fikirlərini bölüşüblər.

# Sezai Yılmaz ATU-nun “Qonaq professor”u adını alıb

**Malatya Universitetinin professoru, qaraciyər transplantasiya şöbəsinin rəhbəri Sezai Yılmaz Azərbaycan Tibb Universitetinin “Qonaq professor”u (Visiting professor) adına layiq görülüb.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli “Qonaq professor” sertifikatını Sezai Yılmaza şəxsən təqdim edib. Rektor uğurlu əməkdaşlıq üçün S.Yılmaza təşəkkürünü bildirib.

Qeyd edək ki, ATU-nun Elmi Şurasının qərarına əsasən, universitetdə 2018-ci ildən etibarən “Qonaq professor” vəzifəsi təsis edilib. Hazırda 7 fərqli universitetin nümayəndələri ATU-nun “Qonaq professor”larıdır.

# Universitetimizi uğurla təmsil edən tələbələrlə görüş



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Azərbaycan Respublikası Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecədə çıxış edən tələbələrlə görüşüb.**

Görüş zamanı rektor “Heydər Əliyev İli” çərçivəsində həm universitetdə, həm də Azərbaycan Dövlət Akademik Filarmoniyasında təşkil olunan təntənəli musiqili tədbirlərdə iştirak edən, ATU-nu yüksək səviyyədə təmsil edən gənclərə təşəkkürünü bildirib. O, ATU tələbələrinin yalnız təhsil səviyyəsi ilə deyil, həm də yaradıcılıq bacarıqları ilə öndə olduğunu vurğulayıb: “Ölkəmizdə keçirilən bu cür önəmli tədbirlərdə məhz bizim tələbələrin çıxış etməsi hər birimiz üçün böyük bir fəxrdir. 93 yaşlı Azərbaycan Tibb Universitetinin tələbələri sosial və ictimai baxımdan daim aktiv olublar. Bu gün universitet nəzdində fəaliyyət göstərən “Çinar” rəqs ansamblının 64 yaşı var və ölkə səviyyəsində tanınır. ATU-nun idman komandaları bir çox yarışlarda dəfələrlə yüksək yerlərə layiq görülüblər”.

Təhsil həyatının ağırlığına baxmayaraq yaradıcılıqla məşğul olmağa imkan tapan tələbələrə təşəkkür edən rektor Gəray Gəraybəyli onlara gələcək fəaliyyətlərində daha böyük uğurlar arzulayıb.

ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov isə bu tələbələrin fəaliyyətini dəstəklədiyinə görə universitetin rəhbərliyinə və şəxsən rektora təşəkkür edib. O, bədii gecədə çıxış edən tələbələrə pul mükafatının ayrılmasının gənclər üçün böyük stimul olduğunu bildirib.

# Moskvalı səhiyyə rəsmiləri ATU-da olub

**Moskva Hökumətinin Səhiyyə Departamentinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin qonağı olub. Universitet rəsmiləri ilə görüşdə qarşılıqlı əlaqələrin inkişafı, birgə layihələrin icrasının mümkünlüyü ilə bağlı müzakirələr aparılıb.**



Nümayəndə heyəti ilə görüşdə ATU rektoru, professor Gəray Gəraybəyli universitetin genişlənən beynəlxalq əlaqələri, tədris strukturunda tətbiq olunan ciddi dəyişikliklərlə bağlı qonaqlara ətraflı məlumat verib. Rektor ATU-nun 3 ixtisasının akkreditasiyadan keçdiyini bildirərək, bunun universitetin beynəlxalq nüfuzunun artması, daha çox tanınmasına müsbət təsirindən danışıb.

Moskva Hökumətinin Səhiyyə Departamenti başçısının müavinləri Səidə Hacıyeva və İlya Tırov təmsil etdikləri qurumun fəaliyyəti haqqında məlumat veriblər. Qonaqlar qarşılıqlı əməkdaşlığın perspektivləri barədə fikirlərini açıqlayıblar, ikitərəfli mübadilə səfərlərinin həyata keçirilməsinə dair təkliflər səsləndirilib.

Sonra nümayəndə heyətinin üzvləri ATU-nun Tədris Cərrahiyyə Klinikasını ziyarət ediblər.

# 150 tələbə beynəlxalq mübadilə proqramlarında iştirak edəcək

**Azərbaycan Tibb Universiteti ilə Həkimlər və Təbib Tələbələr İctimai Birliyi (AzerMDS) arasında 15 ildən artıqdır ki, davam edən əməkdaşlıq əlaqələri növbəti anlaşma memorandumunun imzalanması ilə daha 3 il müddətinə uzadılıb.**



Memorandum ATU-un beynəlxalq miqyasda daha yaxşı tanınması, tələbələrin xarici ölkələrin universitet klinikalarında təcrübi bacarıqlara yiyələnməsi və elmi araşdırmalar aparması məqsədi daşıyır.

Sənədi Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli və Həkimlər və Təbib Tələbələr İctimai Birliyinin prezidenti Aqil Vəlizadə imzalayıblar. Tələbələrimizin beynəlxalq arenaya çıxışının gücləndirilməsinə yardım edilməsi ilə yanaşı, xarici ölkələrdən gələn tələbələrin istehsalat təcrübəsinin ATU-nun klinikalarında təşkili ilə bağlı məsələlər də memorandumda əhatə olunub.

Qeyd edək ki, saziş sayəsində bu günə qədər 1000-ə yaxın tələbə müxtəlif ölkələrdə mübadilə proqramlarında iştirak edib. Anlaşma memorandumunun müddətinin uzadılması ilə daha 150-ə yaxın tələbənin beynəlxalq mübadilə proqramlarında iştirakı hədəflənir.

# ATU-da "Göz həkimi" tamaşası səhnələşdirilib

## Rektor Gəray Gəraybəyli: Tələbələrimizin müxtəlif sahələr üzrə istedadlarının üzə çıxarılması təqdirəlayiqdir

**Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində 2018-ci ildən fəaliyyət göstərən Teatr Klubu üzvlərinin hazırladığı növbəti tamaşa - "Göz həkimi" səhnəyə qoyulub. Akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş tamaşanı universitetin rektoru, professor Gəray Gəraybəyli, professor-müəllim heyəti və tələbələr izləyib.**

Tələbə Dilbər Rahim Əliyevanın ssenari işləməsi və rejissorluğu, Aygün Abbasovanın bədii rəhbərliyi ilə hazırlanan tamaşanın maraqlı süjet xətti var. Belə ki, klinikanın rəhbəri, 30 illik iş təcrübəsinə malik qocaman professor Şahbazov gənc mütəxəssis İradə həkimin tətbiq etdiyi cərrahi əməliyyat və müalicə üsullarına qarşı çıxır. İradənin Xəzərdə neft buruqlarının qazılması zamanı gözlərinin nurunu itirən Arslan Yılmazın gözlərində etdiyi ilkin əməliyyatı "uğursuz, doğru olmayan əməliyyat" adlandırır. Amma İradə yeni üsulların tətbiqinin zəruriliyi üzərində israrla dayanır və onu elmi əsaslarla izah edir. İradə həm də professorun oğlu Raufun nişanlısıdır. Onlar bir-birlərini dərin məhəbbətlə sevir. Qocaman professor gələcək gəlininin onunla apardığı elmi mübahisələri qəbul etmir, bunu gəlinin qayınatanın "üzünə ağ olması" kimi dəyərləndirir.

Professor elmi rəhbəri olduğu gələcəyin alimlərini də özü kimi köhnə fikirlərin girdabında saxlamağa çalışır. Onların köhnə üsulları özündə əks etdirən elmi işlərinin müdafiə olunmasına şərait yaratmağa çalışır. Amma bu məqamda da qarşısında İradəni görür. O, Nərminənin yazdığı dissertasiya işini qeyri-məqbul hesab edir. İradə ilə bacara bilməyəcəyini hiss edən professor və Nərminə ona qarşı məkrli planı işə salırlar. Professor oğluna İradə ilə ailə qurmamağı məsləhət görür. Rauf fikirli olduğu üçün avtomobil qəzasına uğrayır və xəstəxanaya düşür. Bu xəbəri eşidən İradə kabinetində huşunu itirir və onunla həmsöhbət olan doktor Talıbovun qolları arasına düşür. Bu mənzərəni görən Nərminə tez telefonunun kamerasını xəlvətcə işə salır. Kadrları professora göstərir. Görüntülər klinikada həkim personalı arasında böyük rezonansa səbəb olur. Qeyd edək ki, Nərminə də Raufu sevir. Onun İradə ilə ailə qurmasını heç vəchlə istəmir. O, ürəyini Raufa açsa da, rədd cavabı alır. Çünki könlü İradədədir.

Belə olduqda, professor Şahbazov həkim Talıbovu gələcək gəlininə qarşı qoyur. Amma sonda məkrli planların üstü açılır.

Onu da deyək ki, İradənin Aslan Yılmazın gözlərində apardığı əməliyyat uğurla nəticələnir, görməsi bərpa olunur. İradə bir daha professor Şahbazova və klinikanın həkim personalına sübut edir ki, yeni üsulun tətbiqi heç də səhv deyil.

Tamaşada Həsənağa və Gülər personajları da diqqət çəkir. Həsənağa klinikanın sürücüsü, Gülər isə tibb bacısıdır. Onlar da bir-birlərini saf məhəbbətlə sevir, sonda ailə qururlar.

Tamaşa müsbət sonluqla nəticələnir. Yenilik köhnəlik üzərində zəfər çalır. Bu zəfərin əldə olunması isə Tibb Universitetinin istedadlı tələbələri - Dilbər Rahim Əliyeva, Kamran Əliyev, Fəxri Qardaşov, Gülgün Oktay, Misir Quluzadə, Elbəy Cabbarlı, Fatimə Şabanova, Nailə Əhmədova, Ruziyyə Hüseynova, Səid Qənbərov, Leyla Cavadova, Rüstəm Quliyev, Mirhəsən Cəfərovun aktyorluq məharəti sayəsində mümkün olur.

İzləyicilərin böyük marağına səbəb olan tamaşanın aparıcısı isə İctimai səhiyyə fakültəsinin tələbəsi Aytac Vəliyeva idi.

Tamaşa bitdikdən sonra tələbələrlə səmimi söhbət edən rektor, professor Gəray Gəraybəyli onları uğurlu səhnə işi münasibətilə təbrik edib. O, universitetimizdə gənclərin öz istəklərinə uyğun hər cür məşğuliyyət tapa bilmələri üçün münasib şəraitin mövcudluğundan məmnun olduğunu, tələbələrin müxtəlif sahələr üzrə istedadlarının üzə çıxarılmasını təqdirəlayiq hesab etdiyini bildirib. Bütün bunlarla yanaşı isə, dərslərin birinci yerdə dayandığını, hər bir tələbənin tədris prosesini daim diqqətdə saxlamalı olduğunu vurğulayıb.

**Q.ABDULLAYEV**







# Hərbi tibb fakültəsinin 23-cü ildönümü qeyd olunub

## Ötən dövr ərzində fakültədə 900-dən çox hərbi həkim, 650-dən çox hərbi feldşer hazırlanıb

**Mayın 25-də ATU-nun Hərbi tibb fakültəsinin yaranmasının 23-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş soydaşlarımızın xatirəsi anılıb, dövlət himnimiz səsləndirilib.**

Bundan sonra fakültənin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov giriş nitqi ilə çıxış edib. O, ilk növbədə generalları, zabit heyətini və qonaqları salamlayaraq bütün tədbir iştirakçılarına təşəkkürünü bildirib. Fakültənin rəisi uzaqgörən siyasətçi, görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin tarix yazan dahi şəxsiyyət olduğunu vurğulayıb: "Belə unudulmaz günlərdən biri də 25 may 2000-ci il tarixidir. Həmin tarixdə Ulu Öndərin sərəncamı ilə Azərbaycan Tibb Universitetinin nəzdində Hərbi tibb fakültəsi yaradıldı. Bilirik ki, Azərbaycan Silahlı Qüvvələri dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin qarantıdır və onun onurğa sütunudur. Şəxsi heyətin, əsgər və zabitlərin, onların ailə üzvlərinin sağlamlığı keşiyində dayanan hərbi həkimlərə, o cümlədən hərbi feldşerlərə böyük ehtiyac vardı. Ulu Öndər bütün sahələri mükəmməl bildiyi kimi, hərbi sahəni də əla bilirdi. Bilirdi ki, hərbi həkimlərlə mülki həkimlər arasında çox fərqli xüsusiyyətlər var. Bunlardan biri o idi ki, hərbi həkimlər həmişə ekstremal, tibbi nöqteyi-nəzərdən məhdud şəraitdə, döyüş meydanlarında, mərmi yağışının altında fəaliyyət göstərirlər".

23 illik fəaliyyəti dövründə Hərbi tibb fakültəsinin Azərbaycan Silahlı Qüvvələri üçün xeyli sayda kadr hazırladığını diqqətə çatdıran Ç.Əlləzov qeyd edib ki, bu müddət ərzində 650-dən çox hərbi feldşer Silahlı Qüvvələrin sərəncamına verilib. Həmçinin 910 nəfər hərbi həkimin 757 nəfəri Müdafiə Nazirliyi, 140 nəfəri Ədliyyə Nazirliyi, 10 nəfəri Sərhəd Qoşunları və 3 nəfəri Daxili Qoşunlarda xidmətə göndərilib: "Bundan əlavə, təhsil sistemində aparılan islahatlarla əlaqədar 2010-cu ildə fakültəmizdə Rezidentura şöbəsi yaradılıb və baza olaraq Mərkəzi Klinik Hospital və ATU-nun klinikaları seçilib. 2010-cu ildən sonra isə 24 ixtisas üzrə təhsilini başa vuran 112 rezident Silahlı Qüvvələrin sərəncamına verilib".

Ulu Öndərin davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın azadlığı uğrunda başlayan Vətən müharibəsinin ilk günlərindən Hərbi tibb fakültəsinin şəxsi heyətinin də cəbhə bölgəsinə yollandığını diqqətə çatdıran Ç.Əlləzov bildirib ki, V-VI kurslarda təhsil alan kursantlarımız, eyni zamanda 78 rezidentimiz, ixtisasca həkim olan 13 nəfər müəllimimiz və 11 nəfər komandir heyəti cəbhə bölgəsində fədakarlıqla fəaliyyət göstərib.

O, müharibədə Hərbi tibb fakültəsinin məzunlarından 14 nəfərin şəhidlik zirvəsinə ucaldığını, onlardan 6 nəfərin həkim, 8 nəfərin feldşer olduğunu söyləyib. Bu gün də fəaliyyətini əzmlə davam etdirən fakültənin Silahlı Qüvvələr üçün savadlı, bacarıqlı kadrlar hazırladığını vurğulayaraq, şəxsi heyətə uğurlar diləyib.

Müdafiə Nazirliyinin Tibb Baş İdarəsi rəisinin vəzifələrini icra edən tibb xidməti general-mayoru Firuddin Nəbiyev keyfiyyətli hərbi kadr hazırlığının əhəmiyyətindən danışıb. Hərbi tibb fakültəsinin yaradılmasını





Ulu Öndərin Milli Ordumuza böyük töhfəsi kimi dəyərləndirən idarə rəisi, fakültənin bütün əməkdaşlarını, professor-müəllim heyətini bu əlamətdar gün münasibətilə təbrik edib.

Tədbir iştirakçılarını ATU-nun rektoru, professor Gəray Gəraybəylinin adından təbrik edən universitetin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov Hərbi tibb fakültəsində dərs deyən ilk müəllimlərdən biri olduğunu xatırladıb. 23 il əvvəl təməli Ulu Öndərimiz tərəfindən qoyulan bu fakültənin Vətən müharibəsindəki xidmətlərindən söhbət açan prorektor bildirib ki, həm ön, həm də arxa cəbhədə hazırlıqlı həkimlərimiz olmasaydı, itkilərimiz daha çox olardı.

Milli Müdafiə Universitetinin rektoru, professor, general-leytenant Heydər Piriyevin təbrik məktubunu Elmi Tədqiqat İnstitutunun rektor müavini, polkovnik Rəşad Tahirov oxuyub. Təbrikdə deyilir ki, hərbi sahədə qazanılan nailiyyətlər torpaqlarımızın düşmən tapdağından azad olunmasında həlledici rol oynadı. 44 günlük müharibədə fakültənin kursantları və məzunu olan tibb işçiləri də yüksək bilik və bacarıq nümayiş etdirdilər.

Tədbirdə çıxış edən ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov hələ o zaman Ulu Öndərin torpaqlarımızın işğaldan azad ediləcəyinə inandığını və bu inamı Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun gerçəkləşdirdiyini bildirib.

Ehtiyatda olan tibb xidməti polkovnikləri Fərhad Meybəliyev, Rafiq Quliyev və Hərbi tibb fakültəsi rəisinin tədris işləri üzrə müavini, Tədris şöbə rəisi Məharət Rzayev də çıxış edərək, fakültənin keçdiyi tarixi inkişaf yolundan söhbət açıblar.

Bundan sonra fakültənin ildönümünə həsr olunmuş, sözləri Məharət Rzayevə məxsus mahnını kursantlar Vahid Rzayev və Ömər Rüstəmli məharətlə ifa ediblər. Nicat Nəsibli və Xalid Musazadənin ifalarında "Ağ ümid", "Bu dağlardan o yana" mahnıları da tədbir iştirakçılarında xoş ovqat yaradıb. Kursant Nicat Nəsiblinin qiraətində səslənən "Bayraq" şeirinin sədaları və tamaşaçı alqışlarının müşayiəti ilə üçrəngli bayrağımızın səhnəyə gətirilməsi ilə tədbirin rəsmi hissəsi yekunlaşıb.

Daha sonra tədbir hərbi şəhərciyin həyətində bədii hissə ilə davam edib. ATU-nun "Şəfa" xalq çalğı alətləri ansamblının və "Çinar" rəqs ansamblının üzvləri rəngarəng çıxışları ilə tamaşaçılara zövqlü anlar yaşadıblar.

Fakültə rəhbərliyi bədii hissənin təşkilinə görə Universitet Həmkarlar İttifaqı Komitəsinə və rəngarəng proqramın hazırlanmasında xüsusi əməyi olan baş müəllim Səidə Hacıyevaya təşəkkür edib.

**A.KAMRANOĞLU**

# Tələbələrimiz TƏBİB-in tabeli müəssisələrində işlə təmin olunub



**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) ATU ilə birgə layihəsi olan "Azərbaycan Tibb Universitetinin Müalicə profilaktika fakültəsinin IV, V və VI kurs tələbələrinin TƏBİB-in tabeliyində olan tibb müəssisələrində orta tibb heyəti üzrə işə qəbulu" proqramı üzrə görülən işlərə həsr olunan hesabat tədbiri keçirilib.**

Yeni Klinikada baş tutan tədbirdə açılış nitqi ilə çıxış edən TƏBİB-in İnsan resursları departamentinin rəhbəri Günəş Qədimova ilk olaraq iştirakçıları salamlayıb və layihə haqqında ətraflı məlumat verib: "Layihə başlandığı gündən etibarən böyük maraqla qarşılanıb. Belə ki, 435 tələbə bununla bağlı TƏBİB-ə müraciət edib. TƏBİB komandası tərəfindən namizədlərin uyğunluğu dəyərləndirilib və müsahibədən uğurla keçən 132 namizədimiz iş mühitinə daha tez adaptasiya olmaq, bilik-bacarıqlarında səriştəliliyi artırmaq məqsədilə peşəkar mütəxəssislərimiz tərəfindən təlimlərə cəlb olunub.

Təlimlərdə müvəffəqiyyət qazanan 132 gəncin hər biri TƏBİB-in 13 tabeli tibb müəssisəsində işlə təmin edilib. Belə ki, 65 nəfər Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasında, 16 nəfər Nərimanov Tibb Mərkəzində, 13 nəfər Mərkəzi Neftçilər Xəstəxanasında, 9 nəfər Yeni Klinikada və 29 nəfər digər tibb müəssisələrimizdə işə qəbul olunub".

G.Qədimova karyeralarının başlanğıcında olan bu gənclərin hər birinin öz sahələri üzrə peşəkar kadr kimi yetişəcəklərinə, səhiyyənin inkişafı naminə səfərbər olacaqlarına inandığını söyləyib.

TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov çıxışında keyfiyyətli tibbi xidmətin səhiyyə infrastrukturu ilə yanaşı, kadr təminatı ilə də bağlı olduğunu bildirib: "Biz bu gün xəstəxanalarımızı nə qədər müasir standartlara uyğun təchiz etsək də, ən yeni tibbi avadanlıqlar alsaq da, peşəkar həkim-mütəxəssislərimiz olmadan uğurlu nəticə əldə etmək mümkün deyil. Bu baxımdan, bütün dövrlərdə yüksək ixtisaslı tibb işçilərinin yetişdirilməsi Azərbaycan səhiyyəsi üçün prioritet istiqamətlərdəndir".

V.Qurbanov TƏBİB-in tabeliyindəki tibb müəssisələrinə orta tibb işçisi kimi cəlb olunmaqla səhiyyə sahəsində ilk addımlarını atan gənclərə özlərini inkişaf etdirmələri, bilik və bacarıqlarını təkmilləşdirmələri istiqamətində hər zaman yardımçı olacaqlarını vurğulayıb.

Daha sonra çıxış edən səhiyyə nazirinin müavini Nadir Zeynalov istənilən sahədə nəzəri bilikləri dərinləşdirmək, öz işinin peşəkarı olmaq üçün praktik vərdişlərin böyük əhəmiyyət daşıdığını qeyd edərək tibb tələbələrinin işlə təminatını yüksək qiymətləndirib.

ATU-nun prorektoru, professor Sabir Əliyev isə çıxışında Azərbaycan Tibb Universitetinin tələbələrinə təhsil illəri boyunca qazandıqları bilik və bacarıqları praktikada tətbiq etmək imkanı yaratdığına görə TƏBİB-ə təşəkkürünü bildirib.

Tələbələrin orta tibb işçisi kimi fəaliyyətə başlayacaqları xəstəxanalardan Kliniki Tibbi Mərkəzin direktoru Könül Ələkbərov, Yeni Klinikanın direktoru vəzifəsini icra edən, baş həkim Cavid Paşayev, Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının direktoru Elviz Qasımov çıxışlarında gənclərin təhsillərini davam etdirdikləri bir dövrdə işlə təminatları və əmək mühiti ilə tanış olmalarının onların gələcək karyerasında mühüm rol oynayacağını bildiriblər.

Tələbələrimizdən Yusuf Xəlil, Nigar Quliyeva çıxış edərək onlara bu şəraiti yaratdıqlarına görə TƏBİB-ə, Azərbaycan Tibb Universitetinə, həmçinin layihənin ərsəyə gəlməsində iştirak edən hər kəsə dərin minnətdarlıqlarını çatdırıb, Azərbaycan səhiyyəsinin inkişafına öz töhfələrini verməyə çalışacaqlarını vurğulayıblar.

Tədbirin sonunda təlimlərdə uğur qazanan tələbələr təltif olunublar.

# Şəhid və qazi övladları üçün tibbi aksiya keçiriləcək

**1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti və Azərbaycan Pediatrlar Assosiasiyasının birgə təşkilatçılığı ilə uşaqlar üçün kompleks müayinə aksiyası keçiriləcək.**

"Hər bir uşaq, hər bir ana" şüarı altında tibbi aksiya uşaqlarda xəstəliklərin vaxtında və düzgün müəyyən edilməsi, azyaşlılara profilaktik müayinə mədəniyyəti, sağlam həyat tərzinin təbliğinə xidmət və ümumilikdə sosial xarakterli dövlət proqramlarına töhfə vermək məqsədi daşıyır.

Həssas əhali qrupuna aid edilən ailələrin qayğı ilə əhatələnməsinə xidmət edən bu aksiya şəhid və qazi ailələrindən gənc analar və övladları üçün təşkil olunacaq.

ATU-nun Tədris Cərrahiyyə və Tədris Terapevtik klinikalarında keçiriləcək aksiyada müxtəlif sahələr üzrə ixtisaslaşmış peşəkar həkim heyəti tərəfindən 3 gün ərzində 100 uşaq və 50 anaya müayinə və ambulator müalicə-profilaktik xidmətlərin göstərilməsi nəzərdə tutulur.

# Gürcüstanlı həmkarlarımız ATU ilə əməkdaşlıqda maraqlıdır



**Tbilisi Dövlət Tibb Universitetinin nümayəndə heyəti ATU-da qonaq olub. Universitet rəsmiləri ilə görüşdə qarşılıqlı əlaqələrin inkişafı ətrafında müzakirələr aparılıb.**

ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev universitetin tarixi, strukturu, beynəlxalq əlaqələri, tədris prosesində tətbiq olunan yeniliklərlə bağlı qonaqlara ətraflı məlumat verib. Həmçinin artıq ATU-nun 3 ixtisasının Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin (IAAR) akkreditasiyasından keçdiyi nəzərə çatdırılıb.

Tbilisi Dövlət Tibb Universitetinin Elmi Tədqiqat-Bacarıqlar Mərkəzininn direktoru, dosent Luiza Gabunia və Sosial və kliniki farmakologiya kafedrasının müdiri, professor Nana Gorgaslidze təmsil etdikləri qurumun fəaliyyəti haqqında məlumat veriblər. Qonaqlar qarşılıqlı əməkdaşlığın perspektivləri barədə fikirlərini açıqlayıb, birgə elmi layihələr və tədqiqatlar sahəsində əməkdaşlıq, ikitərəfli mübadilə səfərlərinin həyata keçirilməsinə dair təkliflər səsləndiriblər.

Görüşdə, həmçinin ATU-nun Elmi-Tədqiqat Mərkəzinin direktoru, professor Qalib Qarayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri, professor Eldar Qarayev, həmin kafedranın baş müəllimi Sara Paşayeva, I Müalicə profilaktika fakültəsinin TEC sədri Rəşad Abızadə, Tbilisi Dövlət Tibb Universitetinin ENDEAVOR Tələbə Elmi Qurumunun yaradıcısı Gigi Gorgadze və sədri Boris Bendeliani və tələbələr iştirak edirdi.

# Rəhbər heyətin mülki müdafiə məşqi keçirilib





**Azərbaycan Tibb Universitetinin 2023-cü il üçün mülki müdafiə üzrə tədbirlər planına uyğun olaraq, mayın 19-da universitetin inzibati binasında rəhbər heyətin "Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili" mövzusunda məşqi keçirilib.**

Mülki müdafiə qərargahının rəisi Ramiz Əliyev universitetdə mülki müdafiə hazırlığının vəziyyəti barədə geniş məlumat verib, inzibati binanın təxliyyə xəritəsi üzərində məşqin gedişini izah edib, eyni zamanda məşqin planının məzmununu diqqətə çatdırıb.

Məşqə rəhbər heyət, fövqəladə hallar komissiyası, mülki müdafiə qərargahı və hərbiləşdirilməmiş MM qüvvələrinin komandir-rəis heyəti cəlb olunub.

Mülki müdafiə məşqi universitetin rəhbər, komandir-rəis heyətini fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasına yönəldib. Əsas məqsəd mülki müdafiə orqan və qüvvələrinin idarəedilməsinin təşkili, mülki müdafiə planının reallığının yoxlanılması, universitetin fövqəladə hadisələrdə hazırlıq səviyyəsinin müəyyən edilməsi olub. Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin qüvvələri gələnə qədər universitetin daxilində yaradılan mülki müdafiə qüvvələrinin - rabitə və xəbərdarlıq, mühəndis-kəşfiyyat, xilasedicilər, yanğınsöndürənlər, sanitar, qəza-bərpa və ictimai asayişi mühafizə manqalarının üzərinə düşən vəzifələrdən danışılıb. Qeyd olunub ki, əhalinin mülki müdafiəyə hazırlanmasında təlimlərin, məşqlərin böyük əhəmiyyəti var. Ekstremal hallarda necə hərəkət etmək yolları və üsulları işçilərə əyani surətdə göstərilir, mülki müdafiə rəhbərləri idarəetmə vərdişləri qazanırlar.

Təlim məşqi zamanı müharibə şəraitində mülki müdafiə qüvvələrinin fəaliyyətinə xüsusi önəm verildiyi vurğulanıb. Bildirilib ki, raket və artilleriya zərbələrindən qorunmaq üçün xüsusi zirzəmilər, sığınacaqlar açmaq, mülki əhalinin tibbi yardım, ərzaq, içməli su ilə təchizatı, yaralıların evakuasiyasına yardım göstərmək, sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq zəruridir.

Tədbirdə ATU-nun prorektorları, mülki müdafiə qüvvələrinin komandir-rəis heyəti, Nəsimi rayonu üzrə Fövqəladə hallar və mülki müdafiə şöbəsinin rəisi, polkovnik-leytenant Anar Seyidməmmədov, baş zabitlər - mayor Elgiz Paniyev, kapitan Akim Həsənov iştirak ediblər.

# Əməkdaşlarımız beynəlxalq konqresdə iştirak edib



**Türk Toraks Dərnəyi Türkiyənin Antalya-Bələk bölgəsində 26-cı beynəlxalq konqresini təşkil edib.**

Mayın 9-dan 13-dək davam edən konqresdə Azərbaycan Tibb Universitetinin Ağciyər xəstəlikləri kafedrasının müdiri Rafiq Bayramov və kafedranın dosenti Ceyhun İsmayılzadə də iştirak edib. Kafedranın əməkdaşları "The comorbid course of drug-resistant pulmonary tuberculosis and chronic obstructive pulmonary disease" ("Dərmanlara davamlı ağciyər vərəmi və xroniki obstruktiv ağciyər xəstəliyinin komorbid gedişi") mövzusunda e-poster təqdim ediblər.

Konqresdə dünyanın bir çox ölkələrindən (ABŞ, Böyük Britaniya, Çexiya, Polşa, İtaliya və s.) minə yaxın mütəxəssis, o cümlədən dünyada ağciyər xəstəlikləri üzrə tanınmış bir sıra qurumların rəhbərləri və nümayəndələri də iştirak edib, pulmonologiyanın aktual problemlərinə həsr olunmuş məruzələrlə çıxış ediblər. İştirakçılardan Amerika Torakal, Avropa Respirator cəmiyyətlərinin rəhbərlərinin məruzələri xüsusi maraqla qarşılanıb.

Şəhid məzunlarımız

# Andını tutan qəhrəman

## Bu gün Vətənimizi etibarlı şəkildə qoruyan minlərlə Mirsalam Cəfərov var





**1994-cü il aprelin 7-də Tovuzun Bayramlı kəndində Mirsalam Cəfərov dünyaya gələndə atası Təvəkgül Cəfərov əlində silah səngərdə Vətəni müdafiə edirdi. Təəssüf ki, 1-ci Qarabağ müharibəsində ordumuzun lazımi şəkildə formalaşmaması və kifayət qədər silah-sursat olmaması səbəbindən, eləcə də siyasi səbəblərdən torpaqlarımızın 20 faizi düşmənlər tərəfindən işğal edildi. Atəşkəsdən sonra çoxları kimi ata T.Cəfərov da ordudan tərxis olundu.**

Mirsalam atasının Vətənlə, hərbi xidmətlə bağlı söhbətləri, müharibə xatirələri ilə, qisas hissiylə böyüyürdü. Orta məktəbdə şəhidlərimizlə, 20 Yanvar və Xocalı faciəsi ilə bağlı keçirilən tədbirlər ona təsirsiz ötüşmür, işğal altında qalan torpaqlarımızın azad edilməsi istəyi vətənpərvərlik hisslərini gücləndirirdi. Bir dəfə məktəbdə şəhidlərlə bağlı guşənin önündə dayanaraq onlara xitabən "sizin qanınızı alacaq, Şuşaya bayrağı özüm sancacağam" deməsi müəllim və şagirdləri xeyli təsirləndirmişdi.

Doğrudur, Şuşaya bayrağı sancmaq Mirsalama qismət olmasa da, 2016-cı ildə Lələtəpədə üçrəngli bayrağımızın qaldırılmasında iştirak etmişdi. Bu, Qarabağın, Şuşanın azadlığına aparan yolun başlanğıcı idi. Mirsalam Aprel döyüşlərində və ondan əvvəl keçirilən əməliyyatlarda düşmənin xeyli canlı qüvvəsi və bir neçə texnikasını sıradan çıxarmış, yaralı hərbçilərimizə ilkin tibbi yardım göstərərək onların həyatını xilas etmişdi.

### "Həyat yoldaşım oğul itkisinə dözə bilmədi"

**Anası Qızxanım Cəfərova:**



- Hərbçi olmaq Mirsalamın uşaqlıq arzusu idi. Buna görə də gənclərin çağırışaqədərki hazırlıq fənnini yaxşı mənimsəyir, həmişə əla qiymətlər alırdı. Rayonumuzda keçirilən "Şahin" hərb oyunlarında oxuduğu məktəbi layiqincə təmsil edirdi. Hərbi formanı çox sevərdi. Qonum-qonşuda hərbi xidmətdən qayıdanların formasını alıb geyinərdi.

Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsini "feldşer" ixtisası üzrə bitirəndə də Bakıda qalmadı, cəbhə bölgəsində xidmət etməyi üstün tutdu. Təkmilləşməsi üçün Türkiyədə Xüsusi Təyinatlı Qüvvələrin tərkibində kurs keçdi. Orada da fərqləndi. Təşkil edilmiş yarışlarda qrup birincisi oldu və kursdan qayıdandan 8 ay sonra cəbhə bölgəsinə göndərildi.

Çox güclü yaddaşa malik idi. Məntiqli danışığı, iti zəkası ilə həmişə fərqlənirdi. Problemlərin üstünə gedər, həll edərdi. Böyüklə böyük, kiçiklə kiçik idi. İstər orta, istərsə də ali məktəbdə böyük hörmət qazanmışdı. Onu tay-tuşları da çox istəyirdi, hər evə gəlişi toy-bayrama çevrilərdi. Mirsalamın itkisindən 7 il ötür. Bu müddət ərzində evimizdə demək olar ki, sükut pozulmur. Oğul itkisini mənim kimi dərdli olanlar yaxşı bilər. Mirsalamlı xoşbəxtliyim 22 il çəkdi. Həyat yoldaşım da onun itkisinə dözə bilmədi, dünyasını dəyişdi. İstəmərəm heç bir ana mənim kimi balasız, heç bir gəlin həyat yoldaşsız, heç bir körpə atasız qalsın. Üzülürəm ki, canımdan can itirmişəm. Amma qürur duyuram ki, bu gün Vətənimizi etibarlı şəkildə qoruyan minlərlə Mirsalam kimi balam var, Allah hamısını



qorusun! Mənim üçün Mirsalam da, Vətən yolunda şəhid olan o biri balalarım da yaşayırlar! Şükür, 44 günlük Vətən müharibəsi ilə torpaqlarımız azad olundu. İnanıram ki, Mirsalamın ruhu şaddır.

### "O həm mənim, həm də anamın oğlu idi"

**Bacısı Gülbəniz Cəfərova:**

- Mən evin böyük övladıyam. Mirsalam isə bizim sonbeşiyimiz idi. Uşaqlığımız müharibə dövrünə, çətin zamana düşmüşdü. Atam cəbhədə olduğundan, biz uşaqların yükü ananın üzərində idi. Anam işləyir, mən isə evdə balaca Mirsalamı saxlayırdım. 6 yaşımdan uşaqlara nəzarət edib, qayğısına qalmışam. Mirsalam həm anamın, həm də mənim oğlum idi. Yaxşı yadımdadır, müəllimlər məni 1-ci sinfə yazmaq üçün bizə gəlmişdilər. Qucağımda Mirsalam onları qarşıladım. Anam evdə yox idi, iş arxasınca getmişdi. Gələndən sonra məni məktəbə yazdırdı. Mirsalam yavaş-yavaş böyüdü. O çox şən, mehriban, ötkəmli bir uşaq, hamımızın sevinci idi. Bəzən zarafat edir, arada bizi cırnadırdı. Onunla xasiyyətimiz tuturdu. Valideynlərim maddiyyat barədə düşünüb iş arxasınca gedəndə, mənimlə birgə ev işlərini görürdü ki, anam işdən yorğun gələndə əziyyət çəkməsin. Aktiv, ailəyə bağlı uşaq idi. O hələ də mənim gözümdə evimizin



sevimlisi, balaca Mirsalamdır. Onu formada görəndə inana bilmirdim ki, Mirsalam böyüyüb və ali məktəbdə oxuyur. Ali məktəbdə oxuyandan sonra həsrətli günlərimiz başladı. Oxudu, işlədi, onu ara-sıra görməyə başladıq. Onu görmək bizim üçün bir möcüzəyə çevrildi. İşləyəndən sonra dedi ki, indi hamınızın qeydinə özüm qalacağam. Mənim işləməyimə də arada etiraz edirdi. Deyirdi, neçə ki varam, işləməyin, nə lazımdırsa, özüm qaydasına qoyacağam.

Mirsalam mənim qürur, həm də çarəsi olmayan ağrı yerim oldu...

### "Evimizə çoxlu təşəkkürnamələr gəlirdi"

**Qardaşı Həşim Cəfərov:**

- Mirsalam zarafatcıl, qohumcanlı, dostlarını sevən mərd bir oğlan idi. Hər kəndə gələndə qohum-əqrəbanı, dost-tanışı ziyarət edərdi. Ona görə də Mirsalamdan söz düşəndə, hamı onu xoş xatirələrlə yad edir. Qardaşım məndən 4 yaş balaca idi. Həmişə mənimlə güləşəndə çalışırdı ki, özündən kəşf etdiyi fəndlərlə qalib gəlsin. Çox bacarıqlı idi. Peşəsini sevir, ona verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirirdi. İstər oxuduğu, istərsə də xidmətdə olduğu vaxtlar nümunəvi olduğu üçün evimizə çoxsaylı təşəkkür məktubları gəlirdi. Biz hər sirrimizi bir-birimizlə bölüşürdük. İndi də sözüm olanda məzarının başına gedir, onunla dərdləşirəm.

Olduqca vətənpərvər idi. Sonradan bilmişəm ki, Aprel döyüşlərindən əvvəl Mirsalamın olduğu qrup bir neçə döyüş tapşırığını yerinə yetirib, düşmənin çoxsaylı canlı qüvvəsini və texnikasını məhv edib. Aprel döyüşlərində isə qardaşım düşmənin iki yüksək rütbəli zabitini və ondan çox əsgərini zərərsizləşdirib.

O, Talış istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı və aprelin 11-də doğma kəndində torpağa tapşırıldı.

### "And içdi ki, şəhidlərin qanını alacaq"

**Müəllimi Eldar Rzayev:**

- Onun riyaziyyat müəllimi olmuşam. Çox yaxşı şagird olub və dərslərini yaxşı oxuyurdu. Uşaqlarla çox mehriban idi. İstər sinif yoldaşları, istər biz müəllimlər onu çox istəyirdik. Bir arzusu var idi, Şuşaya bayrağımızı sancmaq. Məktəbimizdə şəhidlərin xatirəsinə lövhə yaratmışıq. Yaxşı yadımdadır, Mirsalam 11-ci sinifdə oxuyurdu. Lövhənin önündə dayanaraq sanki and içirmiş kimi dedi ki, rahat uyuyun şəhidlər, sizin qisasınızı alacaq, Şuşaya bayrağı özüm sancacağam! Onun bu sözləri bizi çox təsirləndirdi.

Sözünün üstündə durdu. Hərb sənətini seçdi və şəhidlərimizin qisasını aldı. Həmişə digər şəhidlərimiz kimi, Mirsalamın xatirəsini də ehtiramla yad edirik.

### "Həyat fani, ölüm ani, bir-birinizin qədrini bilin"

**Hərbçi yoldaşı Şamil Həsənov:**



- Mirsalamla 2011-ci ilin avqustunda tanış olmuş, Hərbi tibb fakültəsində 2 il bir yerdə oxumuşuq. Universiteti 2013-cü ildə bitirdik, mən Goranboya, o da Beyləqana təyinat aldı. Həmişə əlaqə saxlayırdıq. Döyüşçü kimi yaxşı döyüşçü, yoldaş kimi yaxşı yoldaş, dost kimi yaxşı dost idi.

2014-cü ildə xüsusi təyinatlıların kursuna gələndə onu da orada gördüm. Təsadüfən yollarımız orada da kəsişdi. Eyni bölmədə 6 ay kurs keçdik.

Təzə vaxtlar ona da döyüş tapşırıqlarının verilməsi üçün canfəşanlıq edirdi. Amma əfsanəvi kəşfiyyatçı, rəhmətlik Pənçəli Teymurov və digər qəhrəman şəhidlərimiz ona tövsiyə edirdilər ki, tələsməsin, bir az da peşəkarlığını artırsın, vaxt gələr, o da döyüş tapşırıqlarını yerinə yetirər. Sonralar o da tapşırıqları peşəkarlıqla icra etdi. Çox çevik, zirək, həyata bağlı bir insan idi. Onun et-



dikləri heç vaxt gözlərimin önündən getmir. Xüsusi təyinatlılar ailəsi onunla fəxr edir və onun Vətən qarşısında xidmətləri unudulmazdır.

44 günlük müharibədə qalib gəlməyimizdə Aprel döyüşlərinin və ondan öncə keçirilən əməliyyatların müstəsna rolu oldu. Tale elə gətirdi ki, Mirsalamla Aprel döyüşlərində də iştirak etdik. Axırıncı dəfə onunla 2016-cı il aprelin 1-də görüşdük. Döyüşlər zamanı qəhrəmanlıq göstərdi və Pənçəli Teymurovla eyni gündə şəhidlik zirvəsinə ucaldı.

Onu da deyim ki, Aprel döyüşlərinə girməmişdən öncə profilinə hərbi formada şəklini qoymuş və altında yazmışdı: "Həyat fani, ölüm ani, bir-birinizin qədrini bilin, ey bəşər övladları!"

Mirsalam bütün azərbaycanlıların fəxr etməli olduğu igid bir oğlan idi.

### "Gözlərimiz həmişə onu axtarır"

**Uşaqlıq dostu Bəhruz Alıyev:**

- Mirsalam mənim həm uşaqlıq dostum, həm də sinif yoldaşım olub. Sinfimizin ən sevimlisi və dəcəli idi. Mehriban idi, heç vaxt dava-dalaşı sevməzdi. Uşaqlar arasında dalaşan olanda onları danlayar, barışdırardı. Hansı bir iş üçün Mirsalamdan kömək istəsəydin, tərəddüd etməz, canla-başla kömək edərdi. Elə bil xeyirxahlıq üçün doğulmuşdu. Sinifdə 14 nəfər idik - 7 oğlan, 7 qız. Hamımız ali məktəbə daxil olmaq üçün hazırlaşırdıq. Amma heç birimiz daxil olmadıq. Mirsalam isə repetitor yanına getmədən Tibb Universitetinə daxil oldu.

O həm də yaxşı təşkilatçı idi. Məktəbimizdə keçirilən əksər tədbirlərin ssenarisini yazar, təşkilatçısı olardı. Orta məktəb illərində və sonralar hər dəfə sinif yoldaşlarımızdan birinin evinə toplaşar, birgə vaxt keçirərdik. Mirsalamın itkisi aramızda hiss olunur. Gözlərimiz həmişə onu axtarır...

2016-cı ilin aprelin 2-də Talış yüksəkliyi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Mirsalam Cəfərov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

**Qabil ZİMİSTANOĞLU**



# ATU-nun “Brend tələbə”ləri mükafatlandırılıb

**AzEdu.az təhsil portalı və ali məktəblərin birgə təşkilatçılığı ilə həyata keçirilən "Brend tələbə" layihəsi çərçivəsində xüsusi meyarlara əsasən seçilən tələbələrin mükafatlandırılması davam edir.**

Mayın 26-da AzEdu.az və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə ATU-da təhsil alan “Brend tələbə”lər mükafatlandırılıb. Tədbirdə AzEdu.az təhsil portalının icraçı direktoru Tünzalə Abbasova, ATU-nun Tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev, Tədris departamentinin müdiri, dosent Kamandar Yaqubov, I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov, II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, Stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədov, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva və bu ada layiq görülmüş tələbələr iştirak edib.

Tədbir professor Sabir Əliyevin açılış nitqi ilə başlayıb. Sonra çıxış edən Tünzalə Abbasova tələbələri təbrik edib və onlara təhsil həyatlarında nailiyyətlər arzulayıb.

Görüş zamanı tələbələrlə uğurun sirləri müzakirə edilib. Daha sonra onlara təltifnamələr təqdim olunub və xatirə şəkli çəkilib.

**"Brend tələbə" statusuna layiq görülmüş gənclərimizlə tanış olaq:**

Abızadə Rəşad Səfdər oğlu - IV kurs, Müalicə-profilaktika fakültəsi

Abdullayev Vaqif Ceyhun oğlu - III kurs, İctimai səhiyyə fakültəsi

Cumayeva Rəna Asif qızı - III kurs, İctimai səhiyyə fakültəsi

Hüseynova Solmaz Əsgər qızı - III kurs, İctimai səhiyyə fakültəsi

Seyfullayeva Fidan Yusif qızı - IV kurs, Müalicə-profilaktika fakültəsi

Səfərəliyeva Mehriban Calal qızı - IV kurs, Müalicə-profilaktika fakültəsi



Miriyev Eyyub Həsən oğlu - VI kurs, Müalicə-profilaktika fakültəsi

Xəlil Yusuf Vüqar oğlu - V kurs, Müalicə-profilaktika fakültəsi

Məmmədov Məhəmməd Rəsul oğlu - IV kurs, Müalicə-profilaktika fakültəsi

Əzimli Rüfət Elman oğlu - III kurs, Müalicə-profilaktika fakültəsi

Şahverdi Mirzəyev – Stomatologiya fakültəsi



# Tələbələrimiz “Təbib” istirahət düşərgəsində dincəlib

**Bu günlərdə Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə Azərbaycan Tibb Universitetinin “Şəfa” xalq çalğı alətləri və qızlardan ibarət “Çinar” rəqs ansamblların iki möhtəşəm konserti baş tutdu. Bunlardan biri universitetdə, digəri isə Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı və Tibb Universiteti tələbələrinin iştirakı ilə Azərbaycan Dövlət Filarmoniyasında keçirildi.**

Proqramda Ulu Öndərin sevdiyi mahnılar tələbələrimizin ifasında tamaşaçılara təqdim olundu. “Çinar” rəqs ansamblının təqdim etdiyi “Yallı” və “Suita” rəqsləri tamaşaçılar tərəfindən gurultulu alqışlarla qarşılandı.

Bu gözəl çıxışlara görə rektor, professor Gəray Gəraybəylinin göstərişi ilə tədbirdə iştirak edən tələbələr və əməyi keçən əməkdaşlar bir günlük Tibb Universitetinin Nabranda yerləşən “Təbib” istirahət düşərgəsində olublar. Tələbələrimiz düşərgədə yüksək səviyyədə qarşılanıb, onlara son illərdə burada görülən işlər haqqında məlumat verilib. Səliqə-sahman, yaşıllıq, gül-çiçəyin göz oxşadığı düşərgədə tələbələr mənalı istirahət edib, vaxtlarını əyləncəli keçiriblər.

İstirahət düşərgəsində kollektiv daha bir konsert proqramı ilə çıxış edib. Tələbələrimizin gözəl rəqsləri, mahnıları hər kəsə xoş əhval bəxş edib.

Tələbələr universitetdə tədrisə, elmə, eləcə də istedadlı tələbələrə daim diqqət və qayğı göstərildiyi üçün professor Gəray Gəraybəyliyə başda olmaqla ATU rəhbərliyinə, o cümlədən Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımova öz minnətdarlıqlarını bildiriblər.

# İdmançı-tələbələrimizin növbəti uğurları

**Azərbaycan Tibb Universitetinin tələbələri ölkəmizdə fəaliyyət göstərən ali məktəblər arasında təşkil olunan müxtəlif növ idman yarışlarında həmişə universitetimizi layiqincə təmsil edib, yarışlarda yüksək yerlər tutublar.**




Son olaraq, ATU-nun tələbələri bu ilin aprel və may aylarında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş Universiada yarışları və Respublika Çempionatında iştirak edib, medallar qazanıblar.

Mayın 18-də Kyokuşin karate üzrə keçirilən respublika çempionatında universitetimizi 8 idmançı tələbə təmsil edib. Onlardan Toğrul Abdullayev, Məhsa Palar 1-ci, İqbal Babazadə, Roşanak Muğanlı, Səfiyyə Qazilova 2-ci, Səfər Əliyev, Fuad Haqverdiyev, Məhəmməd Quluzadə isə 3-cü yerə çıxıblar.

Bu barədə “Təbib” qəzetinin əməkdaşına universitetin “Təbib” İdman Klubunun sədri, karate bölməsinin məşqçi-müəllimi, beynəlxalq dərəcəli hakim, əməkdar məşqçi Qələndər Aslanov məlumat verib. Onun sözlərinə görə, ilk dəfə idi ki, Azərbaycan Tibb Universitetinin tələbələri böyük komanda ilə respublika çempionatına qatılır və çoxlu sayda medallar qazanırdı. Bundan başqa, 13 nəfər təşkilat komitəsinə dəstək vermək üçün, 6 nəfər isə tibbi personal olaraq könüllü iştirak edib.

Tələbələrimizin uğuru bununla bitmir. Oğlan və qızlar komandası voleybol yarışlarında futzal və voleybol bölməsinin məşqçi-müəllimi Şükür Bayramovun rəhbərliyi ilə yeni uğura imza atıblar. Belə ki, aprelin əvvəllərində Gənclər və İdman, Elm və Təhsil nazirliklərinin, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası və “Gənclik” Tələbə İdman Cəmiyyətinin birgə təşkil etdiyi voleybol yarışlarında 13 universitet arasında 1-ci yeri tutublar.

Azərbaycan Futbol Federasiyası Assosiasiyasının rəhbərliyi futbol sahəsində yaxşı təşkilatçılığına görə universitetimizə təşəkkürnamə təqdim edib.

Güləşçilərimiz də öz məharətlərini göstərə bilib. Güləş bölməsinin məşqçi-müəllimi, professor Zakir Məmmədovun rəhbərliyi ilə mayın 15-də Azərbaycan Memarlıq və İnşaat Universitetində təşkil edilmiş sərbəst güləş yarışında 6 tələbəmiz təmsil olunub. Onlardan Paydar Aydın (92 kq) 1-ci, Xəyal Abdullayev (74 kq), Turqut Çıraqov (70 kq) 2-ci, Elvin Şirəliyev (65 kq) 3-cü yerləri əldə ediblər. Nəticədə universitetimiz komanda hesabında 3-cü pilləyə yüksəlib.

Atletika bölməsinin məşqçi-müəllimi Xatirə Şıxlının rəhbərliyi altında məşqlər keçən tələbələrimiz də uğurları ilə bizləri sevindirib. Onlar Heydər Əliyev Fondunun təşəbbüsü ilə “Küləyə qalib gəl!” şüarı altında keçirilən “Bakı marafonu - 2023” yarışlarında yaxşı nəticə göstərib. Yarışda iştirak edən 19 min 800 nəfər arasında universitetimizi 213 nəfər təmsil edib. Sevindirici haldır ki, onlar mükafatçılar üçün nəzərdə tutulmuş 2 min medalın 33-nü universitetimizə gətirməyi bacarıblar.

# Stomatoloq tələbələrimiz mükafat qazanıb

**ATU-nun Stomatologiya fakültəsinin tələbələri onlayn formatda keçirilən Tələbə və Gənc Alimlərin 84-cü Ümumi Ukrayna Elmi Tibb Konqresində məruzələrlə çıxış ediblər.**

V kurs tələbəsi Noor Hameed Misodinenin “Aftoz stomatit Behcet xəstəliyinin təzahürü kimi” mövzusunda məruzəsi (elmi rəhbər - dosent Ayət Cəfərova, Terapevtik stomatologiya kafedrası) birinci yerə layiq görülüb. IV kurs tələbələri Amaliya Sədrətdinli “Gənclər arasında mikrodentiyanın rastgəlmə tezliyi, etiologiyası, kliniki simptomları” (elmi rəhbər - asssistent Tainça Talıbova, Ortopedik stomatologiya kafedrası), İlahə Bəndəlizadə isə “Minimal invaziv yanaşma, Wax-up və Mock-up bələdçi kimi” (elmi rəhbər - dosent Asif Arxməmmədov, Ortopedik stomatologiya kafedrası) adlı məruzələrinə görə konqresin xüsusi diplomu ilə təltif olunublar.

# Xarici ölkənin doktorantı elmi işini ATU-da yerinə yetirir

**Qazaxıstanın L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin Ümumi biologiya və genomika kafedrasının doktorantı Aynaqulova Qaliya Siyundukovna akademik Bersimbayev Raxmetkaji İskendiroviçin elmi rəhbərliyi altında “Azbest tozunun məməlilərin orqanizminə molekulyar-hüceyrəvi təsirinin öyrənilməsi” adlı mövzusunun bir hissəsini yerinə yetirmək məqsədilə ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrasına ezam edilib.**



O, indiyədək elmi işini yerinə yetirmək məqsədilə iki dəfə, ümumilikdə 25 gün (23 dekabr-04 yanvar 2023-cü il, 10-21 aprel 2023) Azərbaycan Tibb Universitetində olub və rektorun icazəsi ilə qonaq evində yerləşdirilib. Tədqiqatçının əsas məqsədi işıq və elektron mikroskopik üsulların köməyi ilə azbestin təsirindən ağciyərlərin struktur elementlərində, əsasən də alveol və bronxların epitel hüceyrələrinin sitoplazmasında olan mitoxondrilərin utrastrukturunda baş verən dəyişikliklərin öyrənilməsidir. Ona görə də tədqiqatçının ilk ezamiyyə müddətində təcrübə heyvanlarından nümunələrin götürülməsi texnikası, toxumaların fiksə edilməsi, araldit-epon bloklarının hazırlanması, yarımnazik və ultranazik kəsiklərin Leica EM UC7 mikrotomu vasitəsilə aparılması, kəsiklərin müxtəlif üsullarla boyanması və ATU-nun Elmi Tədqiqat Mərkəzinin Elektron Mikroskopiya şöbəsində olan Transmission Elektron Mikroskopu (JEM-1400) vasitəsilə elektronoqrammaların alınması və İTEM proqramının köməkliyi ilə alınan şəkillər üzərində statistik hesablamaların aparılması əməkdaşlarımız tərəfindən öyrədilib. Bundan əlavə, araldit-epon bloklarının hazırlanmasında istifadə olunan reaktivlərin protokollar əsasında uyğun tərkiblərinin seçilməsi üzrə də təlim keçilib.

Tədqiqatçının növbəti ezamı dövründə isə artıq təcrübələr qoyulduqdan sonra özünün hazırladığı bloklar üzərində işlər aparılıb. Belə ki, təcrübə heyvanlarında ağciyərdən ilk olaraq normada (6 blok), sonra isə azbestin müxtəlif dozaları (0,25 və 0,5 mq) nəticəsində hazırlanan bloklardan (hər birindən 6 blok) 1 mkm qalınlığında yarımnazik kəsiklər hazırlanıb və boyandıqdan sonra işıq mikroskopunda tədqiq edilərək şəkilləri çəkilib. Həmin bloklardan 50-70 nm qalınlığında ultranazik kəsiklər hazırlanaraq TEM vasitəsilə şəkillər əldə edilib. Əsasən böyük böyüdücülərdə (80000-100000 dəfə) mitoxondrilər və onun struktur elementləri çəkilib. Elektronoqrammalarda normada və azbestin təsirindən sonra mitoxondrilərin bir sıra əlamətləri statistik olaraq müəyyənləşdirilib.

İlkin nəticə olaraq, azbestin təsirindən ağciyərin sitoplazmatik struktur elementlərindən olan mitoxondrilərin daxili və xarici membranlarında şişkinlik, kristalararası məsafənin genişlənməsi və daxilində membranlı strukturların quruluşunun pozularaq mielinəbənzər cisimciklərin əmələ gəlməsi və s. patoloji dəyişikliklər aşkar edilib.

# Ömrün 60, elmi-pedaqoji fəaliyyətin 35 yaşı

**Bu günlərdə ATU-nun Farmakologiya kafedrasının professoru, tibb elmləri doktoru, tanınmış alim Vəli Əsmətovun 60, elmi-pedaqoji fəaliyyətinin isə 35 yaşı tamam olur.**



Vəli Yadulla oğlu Əsmətov 1963-cü il iyunun 2-də Yardımlı rayonunun Çayüzü kəndində zəhmətkeş ailəsində anadan olub. 1981-ci ildə kənd orta məktəbini əla qiymətlərlə bitirən V.Əsmətov həyatını tibb elminə bağlamaq arzusu ilə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun I Müalicə-profilaktika fakültəsinə daxil olub. Elə həmin ildə də könüllü olaraq Respublika Hərbi Komissarlığına hərbi xidmət keçmək üçün müraciət edir. Ali təhsili müvəqqəti saxlanılmaqla, 1981-84-cü illərdə keçmiş SSRİ-nin nəzarətində olan Şərqi Avropa dövlətlərinin ərazisində kəşfiyyatçı kimi hərbi xidmətdə olur.

Həmin ildən təhsilini davam etdirən V.Əsmətov 1990-cı ildə fərqlənmə diplomu ilə ali məktəbi bitirir və universitetin Böyük Elmi Şurasının qərarı ilə Farmakologiya kafedrasına baş laborant vəzifəsinə təyin olunur. 1994-cü ildə aspiranturanı bitirir, 1996-ci ildə namizədlik, 2009-cu ildə isə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir.

Vəli müəllim 1994-99-cu illərdə Farmakologiya kafedrasında assistent, 2002-ci ilədək baş müəllim, 2002-2010-cu illərdə dosent, 2010-cu ildən isə bu kafedranın professoru vəzifəsində çalışır. O, Tibb üzrə İxtisaslaşdırılmış Müdafiə Şurasının, Əczaçılıq fakültəsinin Elmi Şurasının və Nəzəri fənlər üzrə Problem Komissiyanın üzvüdür. 200-ə yaxın elmi məqaləsi yerli və xarıcı jurnallarda nəşr olunub, 7 tədris vəsaiti, farmakologiya fənnindən tədris proqramı, 9 dərs vəsaiti, 5 tibbi elmi-publisistik kitab, Stomatologiya fakültəsinin tələbələri üçün yazılmış dərslik və bir səmərələşdirici təklifin müəllifidir.

Professor V.Əsmətov 2000-2012-ci illərdə kafedra müdirinin elmi işlər, 2012-2019-cu illərdə isə tədris işləri üzrə müavini olub. 2013 və 2018-ci illərdə Azərbaycan Tibb Universitetinin Fəxri Fərmanı ilə təltif edilib.

Farmakologiya kafedrasının əməkdaşları hər iki əlamətdar tarix münasibətilə professor Vəli Əsmətovu ürəkdən təbrik edir, ona cansağlığı və fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayır.

# Suçiçəyindən necə qorunaq?

## Mütəxəssis deyir ki, nadir hallarda təkrar yoluxma hallarına rast gəlmək mümkündür

**Son günlər ölkəmizin, əsasən də Bakı və Sumqayıt şəhərlərinin məktəb və bağçalarında suçiçəyi virusunun yayılması müşahidə olunur. Bu da əhalinin çox hissəsini - körpələri olan valideynləri, eləcə də bu xəstəliyi keçirməyənləri narahat edir.**

ATU-nun Yoluxucu xəstəliklər kafedrasının baş laborantı Nüşabə Şıxəliyeva bildirib ki, bu xəstəlik mövsümi xarakter daşıdığı üçün əsasən qış və yaz aylarında ən çox uşaq bağçalarında, məktəblərdə və başqa uşaq müəssisələrində yayılıb arta bilir: "Ümumiyyətlə bu xəstəlik uşaq infeksiyaları sırasına daxil olduğu üçün uşaq yaşlarında keçirilərsə, daha yüngül və fəsadsız gedişə malik olar. Xəstəliklə mübarizə və müalicə yollarını bilmək çox vacibdir. Suçiçəyi (Varicella) - intoksikasiya, qısa qızdırma və içərisində şəffaf maye olan (vezikula) səpgilərlə özünü göstərən xoşxassəli virus infeksiyasıdır. Suçiçəyinin törədicisi III tip herpes virusudur. O, varicella - zoster virus və ya V-Z adlanır. Virus oval formada olub, xarici mühitə davamsızdır, hava-damcı yolu ilə ötürülür. Həmçinin xəstə anadan dölə yoluxur. Uşaqların suçiçəyinə qarşı həssaslığı yüksəkdir. Özündən sonra güclü immunitet yaratmasına baxmayaraq, nadir hallarda təkrari yoluxma hallarına rast gəlinir".



Xəstəliyin qızdırma ilə başladığını söyləyən N.Şıxəliyeva deyib ki, inkubasiya dövrü 10-21, orta hesabla isə 14 gündür: "Subfebril qızdırma, iştahanın və yuxunun pozulması və ümumi narahatlıq müşahidə edilir. İlk səpgilər üzdə və başın tüklü hissəsindən başlayır. Daha sonra səpki gövdədə, ətraflarda əmələ gəlir və qaşınma verir. Suçiçəyinin səpkiləri ardıcıl inkişaf etmir və xəstəlik müddətində təkrar əmələ gəlir. Səpkilərdəki möhtəviyyatın bulanıq olması xəstəliyin daha ağrılı keçməsi və ikincili infeksiyanın qoşulmasından xəbər verir. Suluqlar 1-3 gün ərzində quruyur. Səpmə dövründə qızdırma 38, daha ağır xəstələrdə isə 39-40 °C-dək yüksələ bilər. Təkrari səpki olmadıqda, 3-4 günə qızdırma düşür".

Suçiçəyinin diaqnozunu qoymağın çətin olmadığını deyən mütəxəssis bildirib ki, epidemioloji anamnez və səpkilərin xarakteri buna kömək edir: "Müalicə məqsədilə xəstələrə bol maye, vitaminlərlə zəngin qidalar və istirahət məsləhət görülür. Yüngül formaları ev şəraitində müalicə olunur. İkincili infeksiyanın qoşulmamasına nəzarət etmək lazımdır. Bunun üçün zəif permanqanat məhlulu ilə vanna etmək olar. Suluğun tez quruması, partladıqda isə sağlam nahiyəyə dəyib yenilərini əmələ gətirməsinin qarşısını almaq üçün brilliant yaşılının 1%-li məhlulundan istifadə olunur.

Ağır xəstələrə 3-6 ml immunoqlobulin vurulur, vena daxilinə dezintoksikasiya məhlulları, qan, plazma və plazma əvəzediciləri köçürülür. İrinli ağırlaşmalarda antibiotik istifadə olunur. Qaşınmaya qarşı antihistamin preparatlar təyin edilir. Eləcə də müalicədə virus əleyhinə preparatlar - asiklovir, zoviraks, herperaks məsləhət görülür. Bütün bunlarla yanaşı, xəstələr mütləq evdə təcrid olunmalı və xəstə olan otağın havası tez-tez dəyişdirilməlidir. Çünki son səpkidən 5 gün sonra xəstənin yoluxduruculuq qabiliyyəti itir. Üç yaşa qədər uşaqlar təmasın 10-cu günündən 21-ci gününədək təcrid edilməlidir. Əgər hamilə qadınlar suçiçəkli və kəmərləyici dəmirovu olan xəstələrdən uzaq tutulmazsa, dezinfeksiyanın bir o qədər də əhəmiyyəti yoxdur".

### Allah rəhmət eləsin!

ETM-in əməkdaşları II Cərrahi xəstəliklər kafedrasının professoru Xaləddin Musayevə qardaşı, əməkdar elm xadimi, professor

**Surxay Musayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın professoru Əhməd Kazımova bacısı

**Zərəfşan xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Biokimya kafedrasının əməkdaşları kafedranın preparatoru Sədaqət Salayevaya anası

**Törə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qidalanma və tibbi ekologiya kafedrasının əməkdaşları Xarici dillər kafedrasının müdiri, professor Zemfira Məmmədovaya qardaşı

**Əliheydər Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başlağlığı verirlər.

---

Qidalanma və tibbi ekologiya kafedrasının əməkdaşları Allerqologiya və immunologiya kafedrasının dosenti

**Abdulla Fərəməzovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başlağlığı verirlər.

**Azərbaycanlı alim məfhumu tək elmdən deyil, həm də millətinin yüksək mənəvi-əxlaqi dəyərlərindən yoğrulmuş bir anlayışdır. Belə alimlərimiz millətin qürur yeridir. Bu adı şərəflə daşıyan müəllimlərdən biri Əməkdar elm xadimi, Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru Rafiq Əşrəf oğlu Əsgərovdur.**

# Görkəmli anatom-alim 90 yaşında



Görkəmli anatom-alim, tibb elmləri doktoru, professor R.Əsgərovun anadan olmasından 90 il ötür. Rafiq müəllim sadə, mehriban, təvazökar, xeyirxah, öz işini ürəkdən sevən insan, tələbələrin, ictimaiyyətin rəğbətini qazanmış alimdir. O, 1933-cü il mayın 11-də Bakı şəhərində ziyalı ailəsində anadan olub və orta təhsilini Bakıda yerləşən 6 №-li məktəbdə alıb.

1951-ci ildə Azərbaycan Tibb İnstitutunun (ATİ) Müalicə-profilaktika fakültəsinə daxil olub. Tələbəlik illərindən Normal anatomiya kafedrasında laborant, bir il sonra baş laborant vəzifəsində çalışıb.

1957-ci ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirdikdən sonra ATİ-nin Normal anatomiya kafedrasında aspiranturaya daxil olan R.Əsgərov assistent, dosent, professor vəzifələrinə qədər yol keçib, namizədlik və doktorluq dissertasiyalarını uğurla müdafiə edərək, morfologiya elmində öz sözünü inamla söyləyib.

Öz zəngin elmi-pedaqoji fəaliyyəti dövründə professor R.Əsgərov 200-dən çox elmi əsər, monoqrafiya, dərslik və dərs vəsaitləri, metodiki göstərişlər çap etdirib. Gənclik illərindən milli anatomiya məktəbinin banisi professor K.Ə.Balakişiyevin tövsiyəsi ilə çalışmağa başladığı Anatomiya muzeyi professorun əsərlərində ayrıca bir xətt təşkil edir. Muzey haqqında kitablar, eləcə də onlarla elmi-kütləvi məqalələr anatomiyanı gənclər üçün maraqlı etməyə yönəlib. Son illərdə Rafiq müəllim "İnsan və zaman" silsiləsindən bir neçə kitab yazaraq, ölkənin ictimai həyatında, səhiyyə, elm və mədəniyyət sahələrində uğurla fəaliyyət göstərmiş görkəmli şəxslər haqqında öz xatirələrini toplayıb.

Professor R.Əsgərov dəfələrlə Azərbaycan elmini müxtəlif mötəbər tədbirlərdə yüksək səviyyədə təmsil edib. Onun maraqlı mühazirələri, zəngin təcrübəsi bir neçə nəsil Azərbaycan həkimlərinin yetişib ərsəyə çatmasında ümdə rol oynayıb.

1969-cu ildə ATİ-də yeni yaradılan Hazırlıq şöbəsinin müdiri, 1985-90-cı illərdə Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının müdiri vəzifəsində çalışan R.Əsgərov 1988-93-cü illərdə doğma ali məktəbimizin Elmi işlər üzrə prorektoru olub. O, 1990-95-ci illərdə İnsan anatomiyası kafedrasının müdiri vəzifəsinə seçilib. 1995-ci ildən kafedranın professoru, 2017-ci ildən isə məsləhətçi-professoru vəzifəsində çalışan qocaman alim 10-dan artıq namizədlik və doktorluq dissertasiyalarının rəhbəri olub. 2008-2016-cı illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü olan Rafiq müəllimin fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. 2000-ci ildə - ATU-nun 70 illik yubileyi ərəfəsində "Tərəqqi" medalına, 2007-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. Görkəmli alim "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" medalı ilə təltif olunub.

Bu gün də professor R.Əsgərov var qüvvəsi, gənclik eşqi ilə öz təcrübəsini böyüməkdə olan nəslə ötürməkdə davam edir. Kafedramızın qocaman professorunu 90 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı və yeni-yeni uğurlar arzulayırıq.

**İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları**

### Etibarsız sayılır

Özcan Hanne Nur Mehmet Akif qızı (qrup 317A22); Ermia Abbasi Javad oğlu (qrup 421İ1b); Gholamijarchlou Reza (qrup 418A5b); Ceyhun Məmmədrza Rasim oğlunun (qrup 317A19) tələbə bileti, Yusubova Ləman Elman qızının (qrup 317A15) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0010
Sayı 800